# Tarixi zəfər qürur mənbəyimizdir

Bu gün Azərbaycan xalqı özünün ən şanlı, qürurverici tarixi günlərini yaşayır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpası uğrunda Vətən müharibəsinə qalxan Azərbaycan dövləti özünün qüdrətli, yenilməz Ordusu ilə sentyabr ayının 27-də yağı düşmənə qarşı əks-hücum əməliyyatı keçirdi, 30 ilə yaxın bir müddətdə erməni işğalında olan torpaqlarımızı cəmi 44 günə azad edərək ərazi bütövlüyümüzü bərpa etdi.

Bu qələbə mərd oğullarımızın şücaəti və qəhrəmanlığı, öz doğma Vətəninə olan sevgisi, qanı və canı bahasına əldə olundu. Beləliklə, 44 gün davam edən Vətən müharibəsində müasir hərb tariximizin ən şanlı qələbəsini qazandıq və demək olar ki, XXI əsrin yeni müharibə modelini bütün dünyaya təqdim etdik. Azərbaycan xalqına bu qürurlu tarixi, qələbə sevincini bəxş edən Ali Baş Komandana və şanlı Azərbaycan əsgərinə, Vətən yolunda şəhid olmuş igid oğullarımıza və qazilərimizə borcluyuq. Son 17 il ərzində bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da həyata keçirilən məqsədyönlü tədbirlər, islahatlar, müasir hərbi biliklərə malik kadrların hazırlanması bu qələbəmizin təmin olunmasında əsas rol oynadı. Ölkəmizdə möhkəm xalq-iqtidar birliyi mövcuddur. Həmişə xalqının dəstəyinə arxalanan və ondan güc alan Ali Baş Komandan İlham Əliyev bu möhtəşəm qələbə ilə öz adını nəinki Azərbaycan tarixinə, həm də dünya hərb tarixinə qızıl hərflərlə yazdırdı.



Son 30 ildə erməni vandallarından azad olunmuş, tamamilə dağıdılmış, yerlə-yeksan olunmuş rayon və şəhərlərimizin bərpası, yenidən qurulması, tikinti-quruculuq işlərinə start verilib. Bütün bunları həyata keçirmək üçün Azərbaycan çox güclü iqtisadiyyata malik bir ölkədir. Ölkə başçısı qarşıda duran görüləcək işlər barədə danışarkən bildirib ki, insanlar öz dədə-baba yurdlarına qayıdacaqlar, öz yaxınlarının qəbirlərini ziyarət edə biləcəklər. Biz işğaldan azad edilmiş torpaqları yenidən quracağıq, evlər, inzibati binalar, məktəblər tikiləcək və beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Biz bu günə qədər qarşımızda duran bütün vəzifələrə uğurla çatmışıq. Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına bu torpaqlarımızı qaytardıq. Biz bu müharibə dövründə də birlik nümayiş etdirdik və bu birlik bizi daha da gücləndirəcək, ölkəmiz daha da qüdrətli ölkəyə çevriləcəkdir.

Vurğulayım ki, ölkəmizdə son illər dövlətimiz tərəfindən uğurla həyata keçirilən gənclər siyasəti, onlara qayğı, gənclərimizi vətənpərvər ruhda böyüyüb təhsil almaları üçün məqsədyönlü işlər həyata keçirilir. Qarabağ uğrundakı qələbəmizi şərtləndirən əsas amillərdən biri də məhz bu olmuşdur. Bu gün ADPU-nun nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Pedaqoji Kollecin pedaqoji kollektivi də tələbələrə müasir elmi bilik və bacarıqlar aşılamaqla bərabər, onların vətənpərvər ruhda böyüyüb, vətənəlayiq övlad olmalarını öz fəaliyyətlərində ön plana çəkirlər. Bildirim ki, kollecimizdə müxtəlif ixtisaslar üzrə fakültələr fəaliyyət göstərir. Burada da öz işini dərindən bilən, peşəkar, savadlı müəllimlərimiz gənclərin gələcək üçün hazırlıqlı kadr kimi yetişməsi, yüksək təlim-tərbiyə almaları məqsədilə öz bilik və bacarıqlarını əsirgəmirlər. Qeyd edim ki, kollecimizi yüksək nəticələrlə bitirən tələbələr məktəblərə müəllim kimi qəbul oluna bilirlər. Pandemiya dövründə kollecin bütün fakültələrində distant təhsil yüksək səviyyədə həyata keçirilmiş, uğurlu nəticələr əldə olunmuşdur. Bu dövrdə fəaliyyət göstərdiyim Pedaqogika-Psixologiya fənn birləşməsinin müəllimləri və rəhbəri Ülkər Qədirova öz işlərini dövrün tələbinə uyğun quraraq yaxşı nəticələr əldə etmişlər. Gənclərin psixoloji durumunu nəzərə alaraq məktəbin psixoloqları tərəfindən müxtəlif səpkilərdə canlı yayımlar və vebinarlar təşkil olunmuşdur ki, bu da gənclərimizin maarifləndirilməsi və ruhlandırılması işinə xidmət etmişdir. Kollecdə "Xocalı soyqırımı"nın 29 illiyi ilə əlaqədar hər bir dərsin ilk saatı 1992-ci ilin 26 fevralında erməni faşistlərinin həmin gecə günahsız insanlarımıza qarşı törətdikləri qətliama, faciəyə həsr olundu və sənədli videoçarx nümayiş etdirildi.

Qürur hissi keçiririk ki, əldə olunmuş Qələbə zəfərində kollecimizdə təhsil alan tələbələrimizdən və keçmiş məzunlarımızdan bir neçəsi könüllü olaraq iştirak edib qəhrəmanlıq göstərmişlər ki, bütün kollektivimiz onlarla fəxr edir və şəhid olanların xatirələrini əziz tuturlar. Onlardan biri Vətən uğrunda gedən şiddətli döyüşlərdə 16 oktyabrda qəhrəmancasına həlak olmuş tələbəmiz İlkin Ağaquliyevdir. Kollecdə onun xatirəsinə həsr olunmuş "Qəhrəmanlıq zirvəsi" auditoriyası yaradılıbdır. Peşə təlimi ixtisası üzrə təhsil alan tələbəmiz Anar Əliyev "Cəsur döyüşçü", "Zəngilanın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Silahlı Qüvvələr veteranı" medalları ilə təltif olunub. Bundan başqa, Fiziki tərbiyə müəllimliyi ixtisası üzrə təhsil alan Rəhman Əzizov da müharibədə göstərdiyi şücaətlərə görə kollec rəhbərliyi tərəfindən Fəxri Fərmanla təltif olunub. Onun Şuşanın azad olunması uğrundakı döyüşlərdə xidmətləri yüksək qiymətləndirilmişdir. Vətən müharibəsində yeganə şəhid olmuş qadın Arəstə Baxışova da kollecimizin məzunudur. Məzunumuz Xəyal Mahmudov Qubadlı və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Kollecin digər yetirməsi Eltac Qasımov da Vətən müharibəsində igidliklər göstərmişdir.

Məlum olduğu kimi, ötən ilin əvvəlindən özünü büruzə verən koronavirus pandemiyası yayılmağa başladı, bütün dünyanı sürətlə bürüdü. Ən inkişaf etmiş ölkələrdə belə gündə yüzlərlə insanın həyatına son qoyuldu. Bu xəstəliyin ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində qabaqlayıcı profilaktik tədbirlər vaxtında həyata keçirilmiş və Azərbaycanda bu epidemiyanın geniş yayılmasının qarşısı alınmışdır. Bu gün də Azərbaycan vətəndaşlarının sağlamlıqlarının qorunması və hərtərəfli tibbi xidmətlə təmin olunması yönündə işlər uğurla davam etdirilir. Xalqımız dünyanı ağuşuna almış bu virusa qarşı mübarizədə də həmrəylik, birlik nümayiş etdirir və "biz birlikdə güclüyük" devizi özünü doğruldur. Ölkə başçısı cənab İlham Əliyevin göstərişi ilə görülən preventiv tədbirlər, kompleks işlər infeksiyanın geniş yayılmasının qarşısını alır. Həyatımızın bir sıra istiqamətlərində olduğu kimi, təhsil sahəsində də koronavirus infeksiyası səbəbindən təhsildə fasilə yaranmışdır. Təhsil Nazirliyi tərəfindən ənənəvi tədrisin müxtəlif distansiv vasitələrlə əvəz olunması, məktəblilərin təhsildən kənarda qalmaması üçün fəaliyyətlərimizin məsafədən təşkil olunması kollektivimizə infeksiyadan daha etibarlı şəkildə qorunmağa və səmərəli işləməyə imkan veir. Qeyd edim ki, pandemiyanın aşkarlandığı ilk gündən etibarən Azərbaycan Dövlət Pedaqoji Kollecin direktoru, dosent İsrayil İsgəndərovun rəhbərliyi ilə dezinfeksiya, sosial izolyasiya işlərinə ciddi əməl olunmuşdur. Belə ki, kollecdə dezinfeksiya işləri mütəmadi olaraq həyata keçirilmiş, sosial məsafənin saxlanılmasına, tibbi-gigiyenik qaydalara ciddi surətdə tam əməl olunur.



Pandemiyaya qarşı həyata keçirilən tədbirlərdə direktor müavini Məhbubə Məmmədovanın, tərbiyə işləri üzrə direktor müavini Nigar Şirəliyevanın, sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə direktor müavini Sevda Axundovanın səmərəli fəaliyyətini qeyd etmək olar. Azərbaycan DPK-nın direktoru İsrayil İsgəndərovun təşkilatçılığı ilə Vətən müharibəsi dövründə əsgərlərimizə, pandemiya ilə əlaqədar isə ehtiyacı olan, imkansız ailələrə də kollec kollektivi tərəfindən köməkliklər göstərilmişdir və bu proses davam edir.

**Minayə ORUCOVA,**
**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecin Pedaqogika-Psixologiya fənn birləşməsinin pedaqogika müəllimi.**